**https://doi.org/10.58225/tim.2025-3-115-120**

**Ş.İ.Əlizadə**
***i.ü.f.d., dosent, Azərbaycan Memarlıq və İnşaat Universiteti,***
***ORCID 0000-0001-8079-3255***
***shahla.alizada@azmiu.edu.az***

*Məqalə redaksiyaya daxil olub 02.10.2025*
*The article was received by editorial board on 02.10.2025*
*Статья принята к печати 02.10.2025*

# TURİZM SEKTORUNUN REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINA TƏSİRİ

**Xülasə**

*Turizm sektoru müasir dövrdə iqtisadiyyatın aparıcı və dinamik inkişaf edən sahələrindən biri kimi çıxış edir. Azərbaycan da bu potensialdan səmərəli istifadə edərək, turizmi ölkənin sosial-iqtisadi inkişafında strateji prioritetlərdən birinə çevirmişdir.*

*Son illərdə turizm sahəsinə dövlət dəstəyi, infrastruktur layihələri və beynəlxalq tanıtım kampaniyaları nəticəsində ölkəyə gələn turistlərin sayı artmış, bu isə ölkə iqtisadiyyatına və əhalinin rifahına birbaşa müsbət təsir göstərmişdir. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən qeyd edə bilərik ki, turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi 2023-cü ildə 4,1%, 2024-cü ildə isə ilkin məlumatlara əsasən 4,7% olmuşdur. Bu göstərici 2021-ci illə müqayisədə 2 dəfə çoxdur.*

*Turizmin inkişafı nəticəsində mehmanxanalar, restoranlar, nəqliyyat, əyləncə və xidmət sahələrində minlərlə yeni iş yeri yaradılır. Bu, xüsusilə regionlarda işsizlik səviyyəsinin azalmasına və yerli əhalinin gəlir imkanlarının artmasına səbəb olur.*

*Məqalədə Azərbaycan Respublikasında yeni yaradılmış iş yerləri, iqtisadiyyatın sahələrində çalışan işçilərin sayı, turizm sektorunun regionların inkişafına təsiri, sektora investisiya qoyuluşları araşdırılmışdır.*

***Açar sözlər:** iqtisadi regionlar, turizm, əhali, məşğulluq, sosial-iqtisadi inkişaf, iaşə obyektləri.*

## GİRİŞ

Azərbaycan Respublikasında regionların inkişafı, ölkədə davamlı sosial-iqtisadi inkişaf strategiyasının vacib hissəsini təşkil edir. Regionların inkişafı sahəsində qəbul olunmuş və uğurla həyata keçirilən dövlət proqramları, eləcə də regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlər üzrə sərəncamların icrası, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmişdir. Bu, həmçinin regionlarda kommunal xidmətlərin və sosial infrastrukturun keyfiyyətinin yaxşılaşdırılmasına, sahibkarlıq şəraitinin inkişafına, investisiyaların artmasına, yeni müəssisə və iş yerlərinin yaradılmasına, nəticədə isə əhalinin məşğulluğunun yüksəlməsinə və yoxsulluq səviyyəsinin azalmasına səbəb olmuşdur [2].

Regionlarla yanaşı Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair qəbul edilmiş dövlət proqramlarının ("Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı"nın və "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın) icrası nəticəsində Bakının qəsəbə və kəndlərində uğurlu infrastruktur layihələri həyata keçirilmiş,

kommunal və sosial xidmətlərin həcmi və keyfiyyəti daha da yaxşılaşmış, abadlıq işləri geniş vüsət almış, əhalinin həyat səviyyəsi daha da yüksəlmişdir. Bu gün başlıca vəzifələrdən biri müvafiq dövlət proqramları çərçivəsində görülmüş işlərin davam etdirilməsindən və şəhərətrafı qəsəbələrin və kəndlərin sakinlərinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasından ibarətdir [1].

Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafına dair qəbul edilmiş dövlət proqramlarında müəyyən edilmiş tədbirlərin uğurla həyata keçirilməsi, ölkə iqtisadiyyatının neft-qaz sektoru xaricində davamlı inkişafının təmin olunmasına şərait yaratmışdır. Bu, iqtisadiyyatın şaxələndirilməsi nəticəsində yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlamasına, prioritet sahələrə iri həcmli investisiyaların yönəldilməsinə, yeni müəssisələrin yaradılmasına və yeni iş yerlərinin açılmasına zəmin olmuşdur. İqtisadi fəaliyyət növləri təsnifatı üzrə muzdla işləyənlərin sayının təhlili göstərir ki, ölkə üzrə ən yüksək göstərici təhsil və ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində müşahidə etmək olar.




**Qrafik 1. İqtisadi fəaliyyət növləri təsnifatı üzrə muzdla işləyənlərin sayı, faizlə**

Ölkə ərazisində 2025-ci ilin ilk altı ayında yaradılmış 7069 yeni müəssisənin 77,7 faizi Bakı şəhərində, 7,6 faizi Abşeron-Xızı iqtisadi rayonunda, 1,8 faizi Naxçıvan Muxtar Respublikası, 1,7 faizi Lənkəran-Astara və Qarabağ iqtisadi rayonlarında, 1,5 faizi Gəncə-Daşkəsən və Şəki-Zaqatala iqtisadi rayonlarında, 1,2 faizi Mərkəzi Aran və Quba-Xaçmaz iqtisadi rayonlarında, 1,0 faizi Mil-Muğan və Qazax-Tovuz iqtisadi rayonlarında, 0,9 faizi Şirvan-Salyan, 0,6 faizi isə Dağlıq Şirvan və Şərqi Zəngəzur iqtisadi rayonlarında qeydiyyata alınmışdır.

Hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin 25,6 faizi tikinti sahəsində, 18,0 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində, 12,7 faizi emal sənayesində, 7,8 faizi peşə, elmi və texniki fəaliyyətlə məşğul olan sahələrdə, 7,6 faizi turizm və ictimai iaşə sahəsində, 4,0 faizi səhiyyə və sosial xidmətlərdə, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda, 3,3 faizi nəqliyyat və anbar

təsərrüfatında, 2,8 faizi informasiya və rabitə sahəsində, 2,7 faizi inzibati və yardımçı xidmətlərdə, 2,5 faizi təhsil sahəsində, qalan 9,6 faizi isə digər iqtisadi fəaliyyət növlərində fəaliyyət göstərir [5].

Azərbaycan Dövlət Statistika Komitəsinin 2023-cü il məlumatlarına əsasən Azərbaycan Respublikasının 7 milyon əhalisi (50,2 % kişilər, 49,8% qadınlar) əmək qabiliyyətli yaşdadır. Məşğul əhalinin sayı (ilin sonuna) isə təqribən 5 milyona bərabərdir. Turizm sektorunda xarakterik sahələrdə çalışan işçilərin sayı 2023-cü ildə 71063 nəfər, 2024-cü ildə isə artaraq 79924 nəfər olmuşdur.

Azərbaycanda turizm üçün xarakterik məhsul (xidmət) növləri sxematik olaraq Sxem 1.-də göstərilmişdir. Respublikamızda yerləşmə və iaşə müəssisələrinin xidmətləri çox istifadə olunan xidmət növlərindəndir.




**Sxem 1. Turizm üçün xarakterik məhsul (xidmət) növləri**

Turizm sahəsinə yatırılan investisiyalar ölkə iqtisadiyyatının genişlənməsinə, yeni iş yerlərinin yaradılmasına, regionların sosial-iqtisadi inkişafına və xarici valyuta gəlirlərinin artmasına mühüm təsir göstərir. Bu səbəbdən, bu vəsaitlərin səmərəli planlaşdırılması və düzgün istiqamətlər üzrə yönəldilməsi xüsusi əhəmiyyət daşıyır.

Sənaye sahəsində əsas vəsaitlərə qoyulan investisiyalar 2018-ci ildə əvvəlki illə müqayisədə azalsa da, 2019-cu ildə artmış və 2017-ci ilə qədər müşahidə olunan yüksələn tendensiyanı davam etdirmişdir. Lakin bu investisiyalar 2021–2022-ci illərdə azalmışdır. Sənaye məhsulu istehsalının dəyəri 2020-ci ildə COVID-19 pandemiyasına görə azalmış, lakin sonradan artaraq 2022-ci ildə 86 383,4 milyon ABŞ dollarına çatmışdır [8]. 2024-cü ildə əsas kapitala 21435,1 milyon manat məbləğində, yaxud 2023-cü illə müqayisədə 0,7 faiz az investisiya yönəldilmişdir. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 10,2 faiz azalmış, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 3,3 faiz artmışdır. İstifadə olunmuş investisiyanın 10641,3 milyon manatı və ya 49,6 faizi məhsul istehsalı sahələrinə, 8221,1 milyon manatı (38,4 faizi) xidmət sahələrinə, 2572,7 milyon manatı (12,0 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 18145,7 milyon manatını və ya 84,7 faizini daxili investisiyalar təşkil

etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 15524,9 milyon manatı və ya 72,4 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur [7].

Qrafik 2-dən göründüyü kimi turizm üçün xarakterik sahələr üzrə qoyulan investisiyaların həcmi son 5 il ərzində qeyri-stabil dəyişmişdir. Ən yüksək göstərici 2023-cü ilə təsadüf edir. Dövlət tərəfindən turizm sektoruna investisiya qoyuluşunu artırmaq üçün müxtəlif proqramlar və güzəştlər tətbiq olunmuşdur. Yeni mehmanxana, yol və nəqliyyat infrastrukturu, turizm obyektlərinin modernləşdirilməsi investorların diqqətini cəlb edib. Münaqişələrin azalması və ölkədə sabitlik turizm sektoruna inamı artırıb. Pandemiyadan sonrakı bərpa dövründə turizm sahəsinə qlobal investisiyaların artması Azərbaycana da təsir edib.




**Qrafik 2. Turizm üçün xarakterik sahələr üzrə qoyulan investisiyaların həcmi, milyon manat**

Turistlərin yerləşdirilməsi və ictimai iaşə xidmətləri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi 2023-cü ildə əvvəlki ilə nisbətən 2,5 dəfə, 2024-cü ildə isə 139,2 faiz artmışdır.

Turizm sektorunda investisiyalar dövlət**,** özəl və birgə (dövlət-özəl tərəfdaşlıq) formasında həyata keçirilə bilər. Struktura görə investisiyaları bir neçə əsas sahəyə bölə bilərik:

1. İnfrastruktur investisiyaları. Bu, turizm fəaliyyətinin həyata keçirilməsi üçün baza yaradan sahələrə edilən yatırımlardır:

– nəqliyyat infrastrukturuna (hava limanları, yollar, dəmir yolları, dəniz limanları və s.);
– su, elektrik, kanalizasiya sistemlərinin qurulması və təkmilləşdirilməsi;
– telekommunikasiya və internet infrastrukturunun inkişafı.

2. Turizm obyektlərinə investisiyalar. Otellər, mehmanxanalar, kurortlar, hostellər, İstirahət mərkəzləri, spa və sağlamlıq kompleksləri, əyləncə parkları, muzeylər, tematik turizm obyektləri. Bakı, Qəbələ, Naftalan, Şəki, Lənkəran və Quba kimi bölgələrdə lüks otellər, butik mehmanxanalar və hostellər fəaliyyət göstərir. Dünya səviyyəli brendlər (Four Seasons, Hilton, Fairmont, Marriott və s.) Azərbaycanda fəaliyyət göstərir**.** "Şəki Xan Sarayı" UNESCO-nun Dünya İrs siyahısına daxil edildikdən sonra bu bölgəyə maraq artıb.

3. İnsan kapitalına yönləndirilmiş investisiyalar. Turizm və qonaqpərvərlik sahəsində kadr hazırlığı, peşəkar təlim mərkəzlərinin yaradılması, dil və xidmət sahəsində təlim proqramlarının təşkili üçün təlim və seminarların keçirilməsi.

4. Marketinq və tanıtım investisiyaları. Brendin yaradılması və beynəlxalq bazarlara çıxarılması, digital marketinq kampaniyaları, sərgilər və beynəlxalq turizm forumlarında iştirak.

Turizm sahəsində investisiyaların yönləndirilməsi bir neçə əsas istiqamətdə həyata keçirilir:

1. Regionların turizm potensialına uyğun istiqamətləndirmə. Dağlıq və təbii ərazilərdə milli parklar (Şirvan, Qızılağac, Hirkan və s.) turistlər üçün açıqdır. İdman və ekstremal turizm (paraplan, xizək, alpinist marşrutlar, xüsusilə Şahdağ və Tufandağ dağlıq zonalarında qış turizmi və dağ yürüşlərinin təşkili) inkişaf edir.

Tarixi bölgələrdə mədəni irs turizmi. İçərişəhər (Bakı), Qobustan Qaya Rəsmləri, Atəşgah, Şəki Xan Sarayı, Qala Arxeoloji Kompleksi kimi abidələr turistlərin maraq dairəsindədir. Tarixi abidələrin bərpası və qorunması sahəsində layihələr həyata keçirilir. UNESCO tərəfindən tanınan abidələr ölkənin beynəlxalq turizm cazibəsini artırır.

Kurort zonalarında – sağlamlıq və istirahət turizmi. Naftalan neft vannaları ilə tanınan nadir sağlamlıq kurortudur və beynəlxalq turistləri cəlb edir. Qalaaltı, İstisu (Kəlbəcər), Duzdağ (Naxçıvan) kimi sağlamlıq mərkəzləri məşhurdur. Bu sahə tibb turizminin inkişafı üçün potensial daşıyır. Xəzər dənizi sahilində (Bilgəh, Nardaran, Şüvəlan, Nabran) kurort zonaları fəaliyyət göstərir. Yay aylarında Bakı və ətraf kəndlərə yerli və xarici turist axını olur.

2. İxtisaslaşmış turizm sahələrinə yönəlmə:

Agro-turizm. Son illərdə kənd turizmi təşviq olunur: yerli qonaq evləri, kənd həyatını əks etdirən turlar, yerli mətbəx, folklor tədbirləri. Lahıc, Xınalıq, Basqal, Ləkit, Qalaxudat kimi kəndlərdə bu sahə inkişaf edir. Aqroturizm dəstəyi üçün dövlət proqramları hazırlanır.

Biznes turizmi. Bakı artıq bir neçə beynəlxalq tədbirə ev sahibliyi edib (Avropa Oyunları (2015), Formula 1 Qran Prisi (2016-dan bəri hər il), İslam Həmrəyliyi Oyunları (2017), COP29 (2024)). Bakı Konqres Mərkəzi, Baku Expo Center kimi infrastruktur obyektləri MICE turizmi üçün istifadə olunur.

3. Dayanıqlı və ekoloji təmiz turizmə yönəlmə. Yaşıl texnologiyaların tətbiqi (bərpa olunan enerji, tullantıların idarə olunması və s.), Ətraf mühitin qorunması ilə bağlı layihələr, Yerli icmaların inteqrasiyası və onların rifahına yönəlik investisiyalar. Quba, Lahıc, İsmayıllı, Qax, Zaqatala və Lənkəran bölgələri ekoturizm üçün əlverişli sayılır [3].

**NƏTİCƏ**

Turizmin inkişafı Azərbaycanın sosial-iqtisadi həyatında dərin və çoxşaxəli təsirə malikdir. Bu sahənin davamlı inkişafı üçün regional turizmin gücləndirilməsi, insan resurslarının hazırlanması, ekoloji dayanıqlılığın qorunması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi vacib amillərdir. Beləliklə, turizm təkcə iqtisadi sektor deyil, həm də ölkənin imicini formalaşdıran, mədəni irsini tanıdan və ictimai rifaha töhfə verən güclü bir vasitədir.

Turistlərin maraq göstərdiyi məhsul və xidmətlərə tələbatın artması yerli sahibkarları fəaliyyətlərini genişləndirməyə təşviq edir. Xüsusilə kənd turizmi, əl sənətkarlığı, milli mətbəx və suvenir istehsalı kimi sahələr inkişaf edir.

Turizmin inkişafı yol, nəqliyyat, rabitə, ictimai iaşə və sosial obyektlərin tikintisinə təkan verir. Bu cür infrastruktur layihələri yalnız turistlər üçün deyil, yerli əhali üçün də mühüm faydalar yaradır.

Turistlərin ölkəyə gətirdiyi valyuta, ticarət dövriyyəsinin artması və xidmət sektorunun genişlənməsi dövlət büdcəsinə əlavə gəlir mənbəyi yaradır. Bu da ölkə iqtisadiyyatının şaxələndirilməsinə və qeyri-neft sektorunun inkişafına xidmət edir.

Turizm yalnız iqtisadi deyil, mədəni sahədə də əhəmiyyətli rol oynayır. Tarixi abidələrin, milli adət-ənənələrin və mədəniyyət nümunələrinin qorunması və beynəlxalq səviyyədə tanıdılması turizmin təşviq etdiyi əsas amillərdəndir.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (https://e-qanun.az/framework/26845)

**2.** "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin fərmanı (https://e-qanun.az/framework/27284)

**3.** Azadalıyev, Shahın - Akova, Orhan. (2024). "Azerbaycan'ın turizm sektörünün yeşil ekonomi çerçevesinde incelenmesi". Uluslararası Türk Dünyası Araştırmaları Dergisi 7/3 (Temmuz), 155-180. https://doi.org/10.59182/tudad.1449739.

**4.** Azərbaycan Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2025 (https://www.stat.gov.az/source/labour/)

**5.** Azərbaycan Dövlət Statistika Komitəsi, Turizm, 2025 (https://www.stat.gov.az/source/tourism/)

**6.** Azərbaycan Dövlət Statistika Komitəsi, Yeni iş yerləri, statistik məcmuə, iyul 2025. (https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/Yeni_i%C5%9F_yerl%C9%99ri_iyul_2025.pdf)

**7.** https://stat.gov.az/news/index.php?lang=az&id=6151

**8.** Mammadov M.A., Yadigarov T.A., Mammadova F.A., Alizade Sh.I., Nagdiyev O.A., Safarova G.N., Aliyev A.M. (2024). An economic and mathematical modeling for risk assessment of innovative activities an enterprise in oil and gas industry. SOCAR Proceedings, (4), pp. 139–146 (DOI 10.5510/OGP20240401029)

**Sh.I.Alizada**
*PhD in Economics, associate professor*
*Azerbaijan University of Architecture and Construction,*
*ORCID 0000-0001-8079-3255*

## The impact of the tourism sector on the socio-economic development of regions

**Abstract**

*The tourism sector is one of the leading and dynamically developing branches of the economy in the modern era. Azerbaijan has effectively utilized this potential and made tourism one of the strategic priorities in the country's socio-economic development.*

*In recent years, thanks to state support, infrastructure projects, and international promotional campaigns, the number of tourists visiting the country has increased, which has had a direct positive impact on the national economy and the well-being of the population. According to data from the State Statistical Committee of Azerbaijan, the share of value added generated in tourism-related sectors accounted for 4.1% of the country's Gross Domestic Product in 2023, and preliminary data for 2024 indicates 4.7%. This figure is twice as much compared to 2021.*

*The development of tourism has created thousands of new jobs in hotels, restaurants, transportation, entertainment, and service sectors. This particularly contributes to reducing unemployment rates in the regions and increasing the income opportunities of the local population.*

*This article examines newly created jobs in Azerbaijan, the number of employees in various sectors of the economy, the impact of the tourism sector on regional development, and investments directed to the sector.*

***Keywords:*** *economic regions, tourism, population, employment, socio-economic development, catering facilities.*